**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# YUXARI SİNİF ŞAGİRDLƏRİNDƏ PEŞƏSEÇMƏ İLƏ BAĞLI TƏSƏVVÜRLƏRİN İNKİŞAFININ PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

| | |
|---|---|
| İxtisas: | 6104.01 – Pedaqoji psixologiya |
| Elm sahəsi: | Psixologiya |
| İddiaçı: | **Çinarə Aydın qızı Hüseynli** |

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Bakı Dövlət Universitetinin Sosial və pedaqoji psixologiya kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: Pedaqoji elmlər doktoru, professor
**Hikmət Əbdül oğlu Əlizadə**

Rəsmi opponentlər: Psixologiya elmləri doktoru, professor
**Ramiz İbrahim oğlu Əliyev**

Psixologiya üzrə fəlsəfə doktoru, dosent
**Gülnarə Anatollu qızı Həsənova**

Psixologiya üzrə fəlsəfə doktoru
**Gülnur Oqtay qızı Abbasova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.43 Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: Psixologiya elmləri doktoru, professor
**Kamilə Ramiz qızı Əliyeva**

Dissertasiya şurasının elmi katibi: Psixologiya üzrə fəlsəfə doktoru, dosent
**Müşviq Hüseyn oğlu Mustafayev**

Elmi seminarın sədri: Psixologiya elmləri doktoru, professor
**Rəşid Vəkil oğlu Cabbarov**

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi
BAKI DÖVLƏT UNİVERSİTETİ p.h.ş.
Baku State University l.e.p.l.
BDU ELMİ KATİB
SCIENTIFIC SECRETARY
İmzanı təsdiq edirəm:
"26" 09 2024

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müasir dünyada gedən sosial-iqtisadi dəyişikliklər, texniki nailiyyətlərin durmadan artması yeni peşə sahələrinin yaranmasına ciddi təkan verir. Belə vəziyyətdə məhz peşəseçiminin adekvat həyata keçirilməsi üçün yalnız peşə haqqında müəyyən təsəvvürlərə malik olmaq kifayət etmir, peşənin gələcək perspektivlərinin proqnozlaşdırılması da mühüm problem kimi ortya çıxır. Peşəseçiminin adekvat həyata keçirilməsi yalnız fərdi dəyərlərin gerçəkləşdirilməsinə deyil, həm də cəmiyyətin hərtərəfli inkişafına yardım edir.

Tarixi təcrübə göstərir ki, məhz o ölkələr təhsil, səhiyyə, iqtisadiyyat sahələrində sürətlə inkişaf edir ki, həmin ölkələrdə peşəseçimi adekvat həyata keçirilir, peşəseçənlər yalnız motivasiya gücünə deyil, həm də müəyyən peşədə özünü tapmaq üçün vacib olan qabiliyyətlərin hesabına zəruri peşəyönümünə malik olurlar. Yalnış seçilmiş peşə sahəsi yalnız insanın həyat planlarını pozmur, həm də cəmiyyətin inkişafını ləngidir, onun asılılığını gücləndirir.

Müasir peşələrin sayının artdığı dövrdə peşəseçimi əvvəlki illərə nisbətən daha aktual və daha vacib problem kimi müasir təhsilin prioritet problemlərinə çevrilməkdədir. Statistik məlumatlar göstəirir ki, məzunların çox hissəsi peşəseçimində problemlərlə qarşılaşır, seçimin düzgün aparılması istiqamətində çətinliklər yaşayırlar. Bunun başlıca səbəblərindən biri seçimlərin və alternativlərin çox olması, şagirdin hansı peşəni seçməsi ilə bağlı problem qarşısında qalmasıdır. Bütün bunlarla yanaşı yuxarı sinif şagirdlərində peşəseçimin tədqiqini aktuallaşdıran və onun öyrənilməsini vacib edən bir sıra cəhətlər vardır. Onları aşağıdakı kimi qruplaşdırmaq olar:

- Əvvəlki illərlə müqayisədə müasir şərtlərdə yuxarı sinif şagirdlərinin fərdi bacarıqlarını və qabiliyyətlərini həyata keçirməyə imkan verən peşələrin sayı xeyli artmışdır. Peşəyə verilən tələblərlə peşəseçimi arasında ciddi bir paradoks özünü göstərməkdədir. Bu danılmaz faktdır.
- İkincisi, şəxsiyyətin əmək fəaliyyətinə tələblər artmışdır. İşəgötürənlər texnikada və texnologiyada dəyişikliklərə operativ şəkildə reaksiya verməyə, əməyin təşkilində müxtəlif yeniliklərə

uğurla adaptasiya olmağa qadir olan mütəxəssislərin işə götürülməsində maraqlıdır. Belə səyyarlıq yalnız dəbin, nüfuzlu olmasının, yüksək əmək haqqının və s. təsiri altında deyil, öz təbii qabiliyyətlərinə müvafiq olaraq peşə seçildiyi təqdirdə mümkündür. Lakin peşə haqqında təsəvvürlər peşə bacarıqlarına uyğun gəlmədiyindən ciddi problemlər yaşanır. Məzunlar təhsili buraxır, yeni peşə axtarışına çalışırlar.

- Üçüncüsü, peşəseçimi haqqında təsəvvürlərin formalaşdırılmasına yönəlmiş tədqiqatların sistemsizliyi, o cümlədən zəruri konsepsiyanın, yol və vasitələrin olmaması, maarifləndirici vəsaitlərin azlığı və s. kimi problemlər peşəseçimi prosesinin təşkilini çətinləşdirir və müəllimlərin bu sahədə fəaliyyətini məhdudlaşdırır.

Bütün bunlarla yanaşı nəzərə almaq lazımdır ki, yuxarı sinif şagirdlərində peşəseçimi haqqında adekvat təsəvvürlərin formalaşdırılması peşə təhsili haqqında islahatlarda da nəzərdə tutulur və bu baxımdan da problem aktualdır. Qeyd olunanları nəzərə alıb "Yuxarı sinif şagirdlərində peşə haqqında təsəvvürlərin formalaşamsının psixoloji xüsusiyyətləri" mövzusunu tədqiqat obyekti kimi seçməyi məqsədəuyğun hesab etmişik.

Peşəseçimi probleminin kökü qədim olsa da, keçən əsrin əvvəllərində sistemli tədqiq olunmağa başlandı. Cəmiyyətdə yeni peşələrin yaranması ilə bu məsələ daha da aktuallaşdı. Peşəseçimi probelminin tədqiqi multidisplinar səciyyə daşıdığından onun müxtəlif elmlər kontekstində tədqiqinə rast gəlinir. Lakin peşəseçimi problemi bizi təhsil aspektində maraqlandırdığında daha çox onun fəlsəfi, pedaqoji və psixoloji istiqamətlərinə diqqət yetirəcəyik.

Fəlsəfi istiqamətdə peşəseçimi fəlsəfi-metodoloji səviyyədə tədqiq olunmuşdur. Burada peşəseçiminin məğzində həyatın mənasının axtarışı, özünüdərk, mənəvi-əxlaqi keyfiyyətlərin formalaşması və s. məsələlər dayanır (Platon, Aristotel, L.Koqan, T.Mor, İ.Osinskiy, A.Losev, F.Asmus, A.Proxorov, A.Frankl, G.Hegel, P.-Sartr, Z.Göyüşov, L.Sıreva, V.Slobodçikov, A.Fomenko, A.Qumbo və b.). Bu istiqamətdə peşəseçimi həyatın mənası, özünütapma, əxlaqi-mənəvi keyfiyyətlərin formalaşması aspektindən tədqiq edilir.

Peşəseçiminin öyrənilməsinə həsr olunmuş pedaqoji tədqiqatlar daha çox peşəseçiminin daxil olduğu və ya onların ilkin komponenti

kimi özünü göstərən özünütəyin, peşəyönümü, özünütərbiyə, peşə karyerası, peşəkarlıq və s. problemlər daha çox diqqət mərkəzinə gətirilmişdir (M.İlyasov[1], H.Əlizadə, Ə.Ağayev, L.Qasımova, , Q.Abbasova, B.Z.Vulfov, S.N.Çistiyako, D.Syuper, S.Batışev, M.Retivıx, V.Simenko, E.Dus və b.).

Psixologiyada peşəseçimi məsələləri müxtəlif aspektlərdən tədqiq edilmişdir. Bir sıra tədqiqatçılar (Ə.Bayramov, Ə.Əlizadə, B.Əliyev[2], K.Əliyeva, R.Qədirova, R.Əliyev, E.Şəfiyeva, G.Hüseynova, L.Cabbarova, C.Alıyev, G.Qurbanova, Ə.Baxşəliyev, R.Cabbarov, E.Bəylərov, M.Mustafayev və b.) peşəseçimini ayrıca götürülmüş tədqiqat kimi deyil, müxtəlif psixoloji proseslərin tərkibində öyrənmişlər. Peşəseçiminin tədqiqində peşəyönümün və özünütəyinin psixoloji mexanizmlərinin öyrənilməsi daha çox diqqəti cəlb edir (E.Kilimov[3], A.İsayev, İ.Kon, Ə.Əlizadə, M.Həmzəyev, N.Edalina, P.Burnatova, T.Yefimova, Z.Orucov, A.Quliyev, R.Rəsulov, A.Şıxəliyev, L.Şuşkina, V.Sısoyev, A.Lenotyev, A.Abulxanova-Slavskaya, B.Ananyev, D.Leontyev və b.) Ancaq qeyd etmək lazımdır ki, fərqli milli-etnik mühitdə və müasir dövrdə yuxarı sinif şagirdlərində peşəseçimi haqqında təsəvvürlərin formalaşması məsələləri kifayət qədər araşdırılmayıb ki, bu da işin aktual olduğundan xəbər verir.

**Tədqiqatın obyekti və predmeti .** Tədqiqatın obyekti peşəseçiminin psixoloji xüsusiyyətləridir. Tədqiqatın predmeti yuxarı sinif şagirdlərində peşəseçmə haqqında təsəvvürlərin formalaşmasıdır.

**Tədqiqatın məqsədi və vəzifələri** yuxarı sinif şagirdlərində peşə haqqında təsəvvürlərin formalaşmasının psixopedaqoji məsələlərinin öyrənilməsi, peşəseçiminə təsir göstərən amillərin aşkarlanması, peşəseçimində özünü göstərən motivasiya istiqamətlərinin müəyyənləşdirilməsidir.

Qarşıya qoyulmuş məqsədin həyata keçirilməsi üçün aşağıdakı vəzifələr müəyyən edilmişdir:

---

[1] (İlyasov M.İ. Peşə, ixtisas seçimi / M.İ.İlyasov. – Bakı: ADPU,– 2015. – 100 s.)

[2] (Əliyev, B.H. Təhsildə şəxsiyyət problemi / Əliyev, B.H., Cabbarov, R.V. – Bakı: 2008. – 134 s.)

[3] (Климов, Е.А. Психология профессионального самоопределения / Е.А. Климов. – Ростов-на-Дону, -1996. – 509 с.)

- Peşəseçiminə həsr olunmuş psixoloji, fəlsəfi və pedaqoji ədəbiyyatın təhlilinin aparılması, problemi diqqət mərkəzində saxlayan tədqiqatların sistemləşdirilməsi, onun nəzəri-metodloji əsaslarının müəyyən edilməsi;
- Yuxarı sinif şagirdlərində peşə haqqında təsəvvürlərin formalşmasına təsir göstərən amillərin aşkarlanması, peşə seçiminin əsas maraq və meyllərinin müəyyən edilməsi, ortaya çıxan problemlərin həlli üçün yeni yol və vasitələrin hazırlanması;
- Yuxarı sinif şagirdlərində peşəseçiminin əsas xarakterik cəhətlərinin ayırd edilməsi, peşəyönümündə ailənin rolunun aydınlaşdırılması;
- Peşə haqqında təsəvvürlərin adekvat formalaşması üçün zəruri olan maarifləndirici işlərin aparılması və onun psixoloji mexanizmlərinin müəyyən edilməsi;
- Yuxarı sinif şagirdlərində peşə haqqında təsəvvürlərin formalaşmasının istiqamətlərini müəyyən etmək üçün eksperimental-psixoloji tədqiqatın keçirilməsi;
- Peşə haqqında təsəvvürlərin şagirdlərin şəxsiyyət keyfiyyətlərinə, motivasiyasına, o cümlədən qabiliyyətlərinə uyğunluğunun müəyyən edilməsi;
- Yuxarı sinif şağirdlərində peşə haqqında yalnış təsəvvürlərin meydana çıxmasının qaşısını ala biləcək tövsiyələrin və korreksiya planlarının işlənilib hazırlanması.

**Tədqitatın əsas fərziyyəsi.** Yuxarı sinif şagirdlərində peşə haqqında təsəvvürlərin formalaşması bir sıra amillərlə yanaşı, onların peşəyə verilən tələblərlə şəxsiyyət keyfiyyətlərinin uyğunluğunun dərk edilməsindən, özlərinə və peşəyə münasibətin xarakterindən, cəmiyyətdə mövcud peşələrin üstünlük dərəcəsindən və peşəyönümünə hazırlığın səviyyəsindən də asılıdır.

**Tədqiqat metodları:**

Tədqiqatın metodoloji əsaslarını peşəseçiminin psixoloji xüsusiyyətlərinə həsr olunmuş, həmçinin karyera qurulmasının istiqamətlərinin araşdırılmasına yönəlmiş ideyalar, özünütəyininin strukturu, təzahürləri, peşəyönümünün inkişafı ilə bağlı ümumelmi müddəalar təşkil edir.

Tədqiqatda A.Maslounun və E.Klimovun yanaşmaları əsas götürülmüş və tədqiqatın gedişi bu istiqamətdə qurulmuşdur. Tədqiqatda müşahidə, eksperiment, müxtəlif tipli anket, sorğular və testlərdən istifadə olunmuşdur. Tədqiqat 260 nəfərlə aparılmışdır. Əldə olunmuş nəticələrin riyazi-statistik təhlili aparılmışdır. Tədqiqatda aşağıdakı metodikalardan istifadə edilmişdir:

1. Sorğu anketi.
2. "Mən kiməm"özünütəsvir metodikası.
3. Peşə seçiminin motivləri metodikası.
4. Peşə sahəsinin istiqamətləri testi.
5. Özünüqiymətləndirmə metodikası

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- Yuxarı sinif şagirdlərində peşə haqqında təsəvvürlər müxtəlif amillərin təsiri ilə formalaşır. Bu təsəvvürlərin formalaşmasında özünütəsdiq meylləri ilə yanaşı, həmyaşıdların və valideynlərin əhəmiyyətli rolu vardır. Aşkar olundu ki, özünüqiymətləndirmənin qeyri-adekvatlığı peşə haqqında yalnış təsəvvürlərin yaranmasını şərtləndirir.
- Peşəseçimi prosesində yuxarı sinif şagirdlərində peşə haqqında təsəvvürlər peşə planları ilə şərtlənmirsə, sabit peşəyönmünə çevrilmir və şagirdlər seçim qarşısında qalırlar. Peşə haqqında təsəvvürlərin inkişafı peşə senarilərinin adekvat qurulmasından qaynaqlanır və peşə motivləri ilə səciyyələnir.
- Peşə haqqında təsəvvürlərin formalaşması şagirdin özü haqqında təsəvvürlərinə identikdirsə, seçilmiş peşə həyat fəaliyyətinin vektoruna çevrilir, əks halda peşə axtarışları fərdi ömrü boyu izləyir.
- Yuxarı sinif şagirdlərində peşə haqqında təsəvvürlərin adekvat istiqamətdə qurulmasında özünüdərk, özünüqiymətləndirmənin adekvatlığı ilə yanaşı, valideynlər, tərbiyəçilər, sinif rəhbərləri, fənn müəllimləri, psixoloqlar əhəmiyyətli rola malik ola bilərlər.

**Tədqiqatın elmi yeniliyi.** Mövcud tədqiqatlardan fərqli olaraq tədqiqat işində yuxarı sinif şagirdlərində peşə haqqında təsəvvürlərin formalaşmasının istiqamətləri aşkar edilmiş, peşə haqqında təsəvvürlərin formalaşmasına təsir göstərən amillər aşkarlanmış, yalnış peşəseçimi zamanı ortaya çıxan fəsadların xarakteri və onu yaradan səbəblər göstərilmiş, peşə keyfiyyətləri ilə şəxsiyyət keyfiyyətləri arasında müsbət korrelyasiya olduğu aşkarlanmışdır. Yu-

xarı sinif şagirdlərində peşəseçimində əsas istiqamətlər aşkarlanmış, peşəyönümü ilə peşə haqqında təsəvvürlər arasında müsbət asılılıq olduğu müəyyən edilmişdir.

**Tədqiqatın elmi-nəzəri və praktik əhəmiyyəti**. Tədqiqat nəticəsində əldə olunmuş biliklər yuxarı sinif şagirdlərində peşə haqqında təsəvvürlərin inkişaf dinamikasını izləməyə və bu prosesin düzgün gerçəkləşdirilməsinə zəmin yarada bilər. Eyni zamanda yuxarı sinif şagirdlərində peşəseçiminin psixopedaqoji mexanimzlərinin öyrənilməsi həm təlim fəaliyyətinin yaxşılaşdırılmasına, onun səmərəli təşkilinə, həm də şagirdin özünün cəmiyyətdə pozitiv istiqamətdə aktuallaşdırmasını şərtləndirə bilər. Əldə olunmuş nəticələr pedaqoji psixologiyanı yeni elmi müddəalarla zənginləşdirə bilər. Yuxarı sinif şagirdlərində peşə haqqında təsəvvürlərin formalaşmasının psixoloji xüsusiyyətlərinin eksperimental olaraq araşdırılması və yeni faktların əldə olunması təlimlə və peşə seçimi ilə bağlı konseptual planların və praktik tövsiyyələrin yaradılmasına imkan verə bilər. Tədqiqatın nəticələrindən seçmə fənlərin tədrisində də istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi**. Tədqiqatın nəticələri BDU-nun Sosial və pedaqoji psixologiya kafedrasının elmi seminarlarında, müxtəlif elmi konfranslarındakı məruzə və çıxışlarda müzakirə edilmişdir. Dissertasiyanın əsas məzmunu, başlıca müddəaları, nəticə və tövsiyələri bir neçə elmi məqalə, məruzə və tezisləri şəklində çap olunmuş əsərlərdə öz əksini tapmış və bu yolla aprobasiyadan keçmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı:** Bakı Dövlət Universitetinin Sosial və pedaqoji psixologiya kafedrası.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, üç fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir. Dissertasiyanın Giriş hissəsi 6 səhifə, 12160 işarə, I fəsil 42 səhifə, 89233 işarə, II fəsil 41 səhifə, 80593 işarə, III fəsil 25 səhifə, 44647işarə, Nəticə hissəsi 4 səhifə, 7499 işarədir. Dissertasiyanın ümumi həcmi istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla, 264 010 işarədir.

# TƏDQİQATIN ƏSAS MƏZMUNU

**Girişdə** tədqiqatın aktuallığı əsaslandırılır, obyekti və predmeti, məqsədi, elmi fərziyyəsi, vəzifələri və metodoloji əsası açıqlanır, həmçinin istifadə olunmuş tədqiqat metodları, tədqiqatın elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, müdafiəyə çıxarılan müddəalar, nəticələri barədə yığcam məlumat verilir.

Dissertasiyanın birinci fəsli "Problemin elmi ədəbiyyatda qoyuluşu və tədqiqi istiqamətləri" adlanır. Bu fəslə üç paraqraf daxildir. "Peşəseçimi və onun tədqiqi istiqamətləri" adlanan birinci paraqrafda bu anlayışın mahiyyəti psixoloji baxımdan aydınlaşdırılır.

Qeyd olunur ki, peşəseçimi insanın həyatının qalan hissəsini müəyyənləşdirir. İnsan həyatının böyük hissələrini işə, peşə fəaliyyətinə sərf edir. Bu baxımdan peşə üçün seçim asan problem deyil və çox vaxt onun seçilməsində yalnışlıqlara yol verilir. Bu prosesin adekvat qurulması yalnız peşəyə olan motivasiya imkanları ilə şərtlənmir. Peşəseçimi müəyyən bir karyera üçün təhsil və təlim ilə bağlı seçimləri əhatə edə biləcək bir peşə yolunun seçilməsi prosesidir. Bu prosesin adekvat təşkilinin zəruriliyi insanın həyatda özünü tapması, özünü müəyyən bir peşəyə həsr etməsi, özünügerçəkləşdirməsi ilə də səciyyəvidir. Bütün bunlarla yanaşı bu paraqrafda problemlə bağlı nəzəri mənbələr araşdırılır. Dünya elmində peşəseçimi ilə bağlı mövcud tədqiqatlar və yanaşmalar təhlil edilib.

Birinci fəslin "Peşəseçmə ilə bağlı təsəvvürlərin formalaşması mərhələləri" adlı ikinci paraqrafında yuxarı sinif şagirdlərində peşəseçmə ilə bağlı təsəvvürlərin formalaşması məsələləri araşdırılır. Yuxarı sinif şagirdlərində peşə haqqında təsəvvürlərin formalaşması mexanizmlərini müəyyən etmək üçün peşəyönümünə hansı amillərin təsir göstərdiyini müəyyən etmək lazımdır. Çünki belə amillərin çox zaman özləri mümkün təsəvvürlərə çevrilirlər. Psixoloji ədəbiyyatda peşə seçiminin necə formalaşması və bu prosesə hansı amillərin təsir etməsi barədə yekdil fikir yoxdur. Bir sıra tədqiqatçılar peşə seçiminə fəaliyyət seçimi kimi yanaşır və məsələni bu aspektdə izah etməyə çalışırlar. Bu zaman tədqiqat predmeti kimi, bir tərəfdən, insanın fəaliyyət subyekti kimi xüsusiyyətləri, digər tərəfdən isə, fəaliyyətin xarakteri, məzmunu, növləri çıxış edir. Qeyd olunur ki, müasir dövrdə

yuxarı sinif şagirdlərinin şəxsiyyət xüsusiyyətlərini bilməklə onun müəyyən peşə ilə bağlı qabiliyyətlərinin üzə çıxarılması məktəbin ən vacib vəzifələrindən biridir. Bu problemlərin həlli üçün hökmən yuxarı sinif şagirdlərinin yaş xüsusiyyətlərini, uşağa peşə seçimini etməyə imkan verməyən psixoloji çətinlikləri aşkar etmək və aradan qaldırılması yollarını müəyyən etmək xüsusi əhəmiyyət kəsb edir.

Üçüncü paraqraf "Yuxarı siniflərin peşə seçimində özünütəyinetmənin rolu" adlanır. Şəxsiyyətin formalaşmasının öyrənilməsinə həsr olunmuş əksər tədqiqatlar peşə seçimi prosesinə peşədə özüntəyinetmə prizmasından yanaşırlar. Bu praqrafda peşə seçimində özünütəyinetmənin rolu araşdırılır, yuxarı sinif şagirdlərində onun formalaşmasına təsir göstərən amillər psixoloji tədqiqatın obyektinə çevrilir. Müxtəlif alimlərin peşətəyininin mərhələləri ilə bağlı irəli sürdükləri fikirlər təhlil edilmişdir. Psixoloji baxımdan özünütəyinin mənası insanın özü – özünə fasiləsiz olaraq "o kimdir, o nə bilir və nəyi bacarır" suallarını verməsidir. Əgər belə bir prosedura başlanıbsa, deməli yuxarı sinif şagirdi özünütəyinin istiqamətlərini müəyyən etməyə çalışır. Bu baxımdan Peşə seçimi özünütəyin prosesinin bir mərhələsidir və çox zaman nəticəyə yönəlmişdir. Onun peşəyönümündə kordinatları aydın olsa da özünütəyin daha uzunmüddətli və istiqaməti bəlli olmayan bir prosesdir. İnsan müxtəlif peşələrdə fəaliyyət göstərsə belə, kim olduğunu başa düşənə qədər özünütəyin prosesi davam edir.

"Yuxarı sinif şagirdlərində peşə haqqında təsəvvürlərin formalaşmasına psixoloji amillərin təsiri" adlı **ikinci fəsil** üç paraqrafdan ibarətdir. Birinci paraqrafda "Yuxarı sinif şagirdlərinin peşə seçiminə onların emosional iradi keyfiyyətlərinin təsiri" öyrənilir. Psixoloji planda peşə seçimi özünü iki cəhətli hadisə kimi göstərir.

1. Seçimin subyekti, yəni, kim seçir;
2. Seçimin obyekti, yəni nə seçirlər.

Seçimin obyekti və subyekti peşə seçiminin müxtəlifliyini müəyyənləşdirir. Bu baxımdan peşə seçimi bir anlıq akt deyil. Peşə seçimi bir prosesə daxil olan bir sıra mərhələlərdən təşkil olunub. Bundan başqa mərhələlərin ardıcıllığı həmdə aşağıdakılardan asılıdır.

- xarici şərait
- peşə seçən subyektin fərdi xüsusiyyətlərindən

Peşə seçiminin dərk olunmuş xarakter daşıması yuxarı sinif şagirdlərinin şəxsiyyətinin inkişafının ən mühüm şərtlərindən biri olmaqla, onun öz qabiliyyətlərinin bütöv şəkildə reallaşdırılması prosesidir. Yuxarı sinif şagirdləri tərəfindən peşənin düzgün seçilməsi ona cəmiyyətdə öz yerini tutmağa və öz biliklərini, bilik və bacarıqlarını effektiv şəkildə tətbiq etməsi prosesidir. Qeyd olunur ki, yuxarı sinif şagirdlərinin peşə seçiminə obyektiv və subyektiv amillər təsir göstərir. Onların hər biri ayrı-ayrılıqda yuxarı sinif şagirlərinin peşə seçiminə təsir göstərərək onların peşəkar fəaliyyət istiqamətini və peşəyə hazırlığını müəyyənləşdirir. Bu paraqrafda eyni zamanda şagirdlərin iradi keyfiyyətlərinin və emosional durumunun bu prosesə təsiri məsələləri tədqiq olunur.

İkinci fəslin ikinci paraqrafı "Yuxarı sinif şagirdlərində peşə maraqlarının formalaşdırılmasının yol və vasitələri" adlanır. Qeyd olunur ki, şəxsiyyətin mühüm xüsusiyyətlərindən biri kimi peşə maraqları öz-özünə yaranmır, təlim və tərbiyə prosesində formalaşır. Peşə maraqlarının formalaşdırılması uzunmüddətli və mürəkkəb prosesdir. O, məktəbəqədər yaş dövründən başlayır, kiçik məktəbli və yeniyetməlik yaş dövründə inkişaf edir. Lakin ümumilikdə özünün ən yüksək inkişaf səviyyəsinə böyük məktəbli yaş dövründə çatır. Peşə maraqları seçilmiş peşəkar fəaliyyətdə özünü göstərən emosional, iradi aktivliyi şərtləndirən psixi xüsusiyyətlərin mürəkkəb kompleksini özündə əks etdirir. Peşə maraqları şəxsiyyətin peşə yönümünün aparıcı komponenti olmaqla peşə maraqları fəaliyyətin məqsəd və vəzifələrini, eyni zamanda onun dəyərlərinin qəbul edilməsində ifadə olunur. Yuxarı sinif şagirdlərində peşə maraqları idraki və təlim maraqları ilə qarşılıqlı əlaqədədir və onları inteqrasiya edərək istiqamətləndirir. Yuxarı sinif şagirdlərində peşə maraqlarının bir-biri ilə qarşılıqlı əlaqədə olan idraki, emosional, iradi və fəaliyyət komponentindən təşkil olunub. Yuxarı sinif şagirdlərində peşə maraqlarının inkişaf etdirilməsi onlarda müşahidə, əzimkarlıq, çətinlikləri aşma, axtarış həvəsi, müstəqillik və digər şəxsiyyət xüsusiyyətlərinin inkişafına səbəb olur. Bu baxımdan peşə maraqları yuxarı sinif şagirdlərinin fəaliyyətini daha səmərəli edir. Yuxarı sinif şagirdlərində müəyyən bir fəaliyyətə maraq yaratmaq üçün onların diqqətlərini həmin fəaliyyət sahələrinə yönəltmək zəruridir. Bu isə öz

növbəsində onlarda peşə maraqlarının və niyyətlərinin inkişafına səbəb olur.

Tədqiqat işinin ikinci fəslinin üçüncü yarımfəsli "Şagirdlərin peşəseçimində valideynlərin təsiri psixoloji amil kimi" adlanır. Bu paraqrafda yuxarı sinif şagirdlərinin peşə seçimində ən aparıcı rollardan biri valideynlərə məxsusdur fikri ön plana çəkilir. Qeyd olunur ki, valideynlərin yuxarı sinif şagirdlərinin peşə seçiminə həm müsbət, həm də mənfi istiqamətdə təsir göstərirlər. Yuxarı sinif şagirdlərinin peşə seçiminə ailənin maddi vəziyyəti, ailənin sosial iqtisadi statusu və ailədə mövcud olan tərbiyə üslubları əhəmiyyətli şəkildə təsir göstərir. Valideynlərin təhsil səviyyəsi yuxarı sinif şagirdlərinin profesional planlarının formalaşmasına əhəmiyyətli şəkildə təsir göstərir. Əgər valdeynlərin təhsil səviyyəsi yüksəkdirsə, bu yuxarı sinif şagirdlərinin peşə seçiminə müsbət, əksinə olduqda isə mənfi təsir göstərir. Peşə seçimi prosesində valdeynlərin əsas vəzifəsi övladları ilə birlikdə seçilmiş peşənin daxili məzmununu anlamaq, eyni zamanda onlarda peşə niyyətlərinin daha da inkişaf etdirilməsinə nail olmaqdır. Yuxarı sinif şagirdlərini peşə seçiminə hazırlamaq üçün valdeynlər özlərinin tərbiyyəvi aktivliklərini tamamilə reallaşdırmalı, adekvat peşə seçilmini həyata keçirmək üçün tərəfdaş və köməkçi kimi fəaliyyət göstərməlidir.

Dissertasiya işinin üçüncü fəsli "Yuxarı sinif şagirdlərində peşəseçmə ilə bağlı təsəvvürlərin eksperımental- psixoloji tədqiqi" adlanır. "Metodikanın təsviri bə tədqiqatın təşkili məsələləri" adlanan birinci paraqrafda problemin tədqiqi metodikası şərh edilir. Tədqiqat Bakı şəhərinin müxtəlif məktəblərində aparılmışdır. Statistik işlənmə zamanı 260 nəfərin anket məlumatları təhlil edilmişdir. Tədqiqat zamanı bir neçə parametr, o cümlədən yaş, cins, təhsil səviyyəsi, demoqrafik amil və peşəseçimi ilə bağlı təsəvvürlərin formalaşmasına təsir göstərən digər məsələlər təhlil edilmişdir. Tədqiqat zamanı aşağıdakı metodikalardan istifadə olunmuşdur:

1. V.Ovçarovanın "peşə seçimi motivləri" metodikası.
2. E.Şostromun "şəxsiyyətəyönümlülük" metodikası.
3. L.A.Yovaşinin "şəxsiyyətin müxtəlif peşə sahələrinə olan meyllərini müəyyənləşdirmə" və "şəxsiyyətin keyfiyyətləri" metodikası.

4. Özünüqiymətləndirmə şkalası.

Tədqiqat zamanı əldə olunmuş nəticələrin kəmiyyət və keyfiyyət təhlili aparılmış, o cümlədən məlumatların riyazi-statsitik hesablanmasına üstünlük verilmişdir. Tədqiqat zamanı SSPS 23 kompüter proqramından istifadə edilmiş və nəticələrin adekvatlığına ciddi nəzər yetirilmişdir. Tədqiqat 2021-ci ilin dekabr, 2022-ci ilin noyabr aylarını əhatə etmişdir. Həyata keçirilən tədqiqatın məqsədi psixoloji metodların köməyi ilə yuxarı sinif şagirdlərində peşəseçmə ilə bağlı təsəvvürlərin formalaşmasının vəziyyətinin qiymətləndirilməsindən ibarətdir.

"Nəticələrin işlənilməsi" adlanan ikinci paraqrafada peşəseçməyə təsir göstərən amillər eksperimental-psixoloji tədqiqatın obyektinə çevrilmişdir.

Respondentlərin cavablandırdıqları anketlərdən əldə edilmiş məlumatların təhlili məqsədi ilə SPSS proqramından istifadə edilmişdir və tədqiqatın məqsədinə uyğun olaraq təsviri-statistik analiz, müqayisə (T-testi analizi) və korrelyasiya analizindən istifadə edilmişdir.

**Cins dəyişəni üzrə peşə seçimi motivlərinin təhlili (n=260).**

**Cədvəl 1**

| Cins | Göstərici | Daxili Fərdi Motiv | Daxili Sosial Motiv | Xarici Müsbət Motiv | Xarici Mənfi Motiv |
|---|---|---|---|---|---|
| Qadın | Ədədi orta ($\overline{X}$) | 20.7 | 19.2 | 13.6 | 16.0 |
| | Toplam (∑) | 2691 | 2496 | 1768 | 2080 |
| Kisi | Ədədi orta ($\overline{X}$) | 18.6 | 18.4 | 13.1 | 14.4 |
| | Toplam (∑) | 2418 | 2392 | 1703 | 1872 |

Nəticələrin təhlili göstərir ki, peşə seçimi ilə bağlı daxili sosial motivlər və xarici müsbət motivlər bütün şagirdlərdə demək olar ki eynidir. Bu iki sferada oğlan və qız şagirdlərinin peşə seçimi motivləri cüzi fərqli olsa da, mövcud fərqin statistik baxımdan mənalı olduğunu söyləmək mümkün deyil və hər iki dəyişən üzrə Sig>0.05 olduğundan müşahidə edilən fərqin 0.05 səviyyəsində statistik baxımdan mənalı olmadığını söyləmək olar. Lakin daxili fərdi motivlər və xarici mənfi motivlər baxımından iki qrup arasındakı fərq ciddidir və bu iki dəyişən üzrə Sig≤0.05 olduğundan iki qrup arasında fərqin 0.05 səviyyəsində mənalı olduğu müşahidə edilir.

**Cins dəyişəni üzrə özünügerçəkləşdirmə səviyyəsi (n=260).**

**Cədvəl 2**

| Cins | Özünügerçəkləşdirmə səviyyəsi | | |
|---|---|---|---|
| | Zəif | Orta | Yüksək |
| Qadın | 0 | 122 | 8 |
| Kisi | 0 | 126 | 4 |
| toplam | 0 | 248 | 12 |

Cədvəl 2-dən görünür ki, özünügerçəkləşdirmə səviyyəsi demək olar ki, oğlan və qızlarda eyni səviyyədədir və iki qrup arasındakı fərq ciddi fərq hesab edilmir. Cədvəldən də göründüyü kimi, özünügerçəkləşdirmənin aşağı səviyyəsi respondentlərdə müşahidə olmamışdır. Demək olar ki, özünügerçəkləşdirmə bütün respondentlərdə orta səviyyədədir (qızlarda 93.8 faiz və oğlanlarda 96.9 faiz). Qızların 6.2 faizində və oğlanların 3.1 faizində özünügerçəkləşdirmənin yüksək səviyyəsi müşahidə edilmişdir.

**Cins dəyişəni üzrə şəxsiyyət keyfiyyətləri baxımdan fərq (n=260)**

**Cədvəl 3**

| | Leven testi əsasında variasiya bərabərliyi | | Ədədi orta bərabərliyi üçün T-test | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | F | Sig. | t | df | Sig. (2-ikitərəfli əlaqə) | ədədi orta fərqi | Standart yayınma fərqi | 95% etibar aralığında fərq | |
| | | | | | | | | Aşağı | Yuxarı |
| İndividualizm | 2.268 | .135 | -.372 | 258 | .711 | -.43077 | 1.15801 | -2.72208 | 1.86054 |
| Ünsiyyətçilik | 1.498 | .223 | 1.480 | 258 | .141 | 1.84615 | 1.24751 | -.62226 | 4.31457 |
| Özünə inam | 1.172 | .281 | -.105 | 258 | .917 | -.18462 | 1.76393 | -3.67486 | 3.30563 |
| Passivlik | 11.208 | .001 | -1.525 | 258 | .130 | -2.09231 | 1.37195 | -4.80695 | .62233 |
| Təxəyyül yönümlü | .074 | .786 | -1.178 | 258 | .241 | -1.66154 | 1.40997 | -4.45141 | 1.12833 |
| Fakt yönümlü | 13.092 | .000 | .104 | 258 | .917 | .12308 | 1.18450 | -2.22065 | 2.46681 |
| Spontantliq | 5.330 | .023 | .596 | 258 | .553 | .80000 | 1.34326 | -1.85787 | 3.45787 |
| Yoxlayıcı | .017 | .898 | -1.796 | 258 | .075 | -2.46154 | 1.37027 | -5.17285 | .24977 |

Cədvəl 3-dən görünür ki, şəxsiyyət keyfiyyətlərinə görə sorğu iştirakçıları arasında müşahidə edilən fərqin cins dəyişəni üzrə təhlili göstərir ki, qruplar arasındakı fərq statistik baxımdan mənalı deyil və hər səkkiz keyfiyyət üzrə Sig>0.05 olmuşdur.

**Cins üzrə şəxsiyyət keyfiyyətlərinin müqayisəsi (n=260).**

**Cədvəl** 4

| Cins | | İndividu-alizm | Ünsiyyətçilik | Özünə inam | Passiv-lik | Təxəyyül yönümlü | Fakt yönümlü | Spontantlıq | Yoxlayi-cı |
|---|---|---|---|---|---|---|---|---|---|
| Qadın | Orta | 30.29 | 29.07 | 31.70 | 24.27 | 29.20 | 28.32 | 31.69 | 34.20 |
| | Cəmi | 3938 | 3780 | 4122 | 3156 | 3796 | 3682 | 4120 | 4446 |
| Kişi | Orta | 30.72 | 27.23 | 31.89 | 26.37 | 30.86 | 28.20 | 30.89 | 36.66 |
| | Cəmi | 3994 | 3540 | 4146 | 3428 | 4012 | 3666 | 4016 | 4766 |

Cədvəl 4-dan göründüyü kimi şəxsi keyfiyyət olaraq individualizm oğlanlarda, ünsiyyətçilik qızlarda, özünə inam oğlanlarda, passivlik oğlanlarda, təxəyyül yönümlülük oğlanlarda, fakt yönümlülük qızlarda, spontantlıq qızlarda və yoxlayıcı olmaq oğlanlarda daha yüksəkdir. Əvvəlcədən işarə etdiyimiz kimi bu fərq cüzidir və statistik baxımdan mənalı deyil (cədvəl 7). Məsələn özünə inam üzrə oğlanlarda ümumi bal 2061 və qızlarda 2073 olmuşdur (31.7-31.83=0.13).

**Cins dəyişəni ilə peşə seçimi motivləri arasında əlaqə (n=260)**

**Cədvəl** 5

| Korrelyasiya | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | Cins | Daxili Fərdi Motiv | Daxili Sosial Motiv | Xarici Müsbət Motiv | Xarici Mənfi Motiv |
| Cins | Pirsona görə korrelyasiya | 1 | -.335** | -.110 | -.084 | -.223* |
| | Sig. (2-tərəfli) | | .000 | .212 | .339 | .011 |
| | N | 260 | 260 | 260 | 260 | 260 |
| **. Korrelyasiya 0.01 səviyyəsində mənalıdır (2-tərəfli). | | | | | | |
| *. Korellyasiya 0.05 səviyyəsində mənalıdır (2-tərəfli). | | | | | | |

Cədvəl 5-dən göründüyü kimi peşə seçimini şərtləndirən motivlər (daxili-fərdi motiv, daxili-sosial motiv, xarici müsbət motiv, xarici mənfi motiv) baxımından iştirakçıların hansı motivə üstünlük verməsi məsələsi araşdırılmış və aydın olmuşdur ki, cins dəyişəninə görə peşə seçimini şərtləndirən motivlər fərqli ola bilər. Əldə edilmiş nəticələrdən də görünür ki, daxili fərdi motiv və xarici mənfi motivlə cins dəyişəni arasında əlaqə var. Belə ki, daxili fərdi motiv üzrə Sig=0.000 , orta qiymət isə, qadın iştirakçılarda 20.7 və kişilərdə 18.6 olmuşdur. Bu isə cins ilə daxili fərdi motiv arasındakı əlaqənin statistic baxımdan 0.01 səviyyəsində mənalı olduğunu deməyə əsas verir. Eyni zamanda xarici mənfi motiv üzrə Siq=0.011 , orta qiymət isə qadınlarda 16 və kişilərdə 14.4 olmuşdur. Yəni peşə seçimində bu iki motiv qadınların seçiminə daha çox təsir edir və bu iki motivlə cins dəyişəni arasındakı əlaqə statistik baxımdan 0.05 səviyyəsindı mənalıdır.




**Şəkil 1.** Cins dəyişəninə əsasən özünüqiymətləndirmə səviyyəsi say etibarı ilə (n=260).

Şəkil 1-dən göründüyü kimi müxtəlif şəsxiyyət keyfiyyətləri üzrə (20 əlamət üzrə) respondentlərin “özünüqiymətləndirmə” səviyyəsinin ümumi təhlili göstərir ki, 260 respondentin ümumilikdə

94 nəfəri verilən keyfiyyətlər üzrə özünü zəif, 94 nəfər orta və 72 nəfər yüksək qiymətləndirir. Lakin qadın və kişi respondentlərin bu sferada fərqli yanaşması və fərqli qiymətləndirilməsi də diaqramda özünü göstərir.

**Özünüqiymətləndirmə səviyyəsi üzrə göstəricilər.**
**Cədvəl 6**

| | | Zəif | Orta | Yüksək | Total |
|---|---|---|---|---|---|
| Cins | Qadın | 26.2 | 36.9 | 36.9 | 100 |
| | Kisi | 46.2 | 35.4 | 18.5 | 100 |
| Total | | 36.15 | 36.15 | 27.7 | 100 |

Cədvəl 6-dan aydın olur ki, qadınlar və kişilərdə özünüqiymətləndirmə səviyyəsi fərqlidir. Baxmayaraq ki, ümumilikdə verilən 20 əlamətli şəxsiyyət keyfiyyətləri baxımından özünü zəif və orta səviyyədə qiymətləndirənlərin sayı eyni və özünü yüksək qiymətləndirənlərin sayı aşağıdır, amma, cins amilinə nəzərən görünür ki, qadınlarda özünü yüksək və orta səviyyədə qiymətləndirənlərin sayı eyni olub (36.9 faiz yüksək, 36.9 faiz orta), özünü zəif qiymətləndirənlər isə 26.2 faiz olub. Ancaq kişilərdə bunun əksini görmək mümkündür. Belə ki, kişilərin yalnız 18.5 faizi özünü yüksək və 36.15 faizi özünü orta səviyyədə qiymətləndirir. Kişilərin çox hissəsi, yəni 46.2 faizi özünün zəif qiymətləndirib. Cins dəyişəninə görə özünüqiymətləndirmə səviyyəsində fərqin ciddi olub-olmamasını yoxlamaq üçün müqayisə analizindən (iki müstəqil qrupun müqayisəsi) istifadə edilib və nəticələr aşağıda verilmişdir. Tədqiqat göstərdi ki, peşə seçimi ilə bağlı daxili sosial motivlər və xarici müsbət motivlər bütün şagirdlərdə eyni fonda təzahür edir. Bu iki sferada oğlan və qız şagirdlərinin peşə seçimi motivləri tendensiya istiqamətli fərqlə özünü göstərir.

Üçüncü fəslin “Peşəseçiminin inkişaf etdirilməsi modelləri” adlanan üçüncü paraqrafda peşəçeminin inkişaf etdirilməsi ilə bağlı müxtəllif modellər nəzərdən keçirilir. Burada Hollandın, Gottfredsonun, Pirsonun bununla bağlı irəli sürdükləri modellər araşdırılmışdır.

Xüsusi ilə bu istiqamətdə Gottfredsonun irəli sürdüyü model üzərində daha çox dayanılmış və onun apardığı tədqiqatlar təhlil edilmişdir. Qeyd edilən model mürəkkəb peşə məlumatlarının öyrənilməsini və istifadəsini, uşaqlara və yeniyetmələrə karyera ilə bağlı şəxsi xüsusiyyətlərini anlamağa imkan verən təcrübə və fəaliyyətləri, özünü optimallaşdırmaq üçün istifadə edilə bilən məsləhətçi strategiyaları və alətlərindən ibarətdir (Gottfredson, L. S. (2002). Gottfredson‟s theory of circumscription, compromise, and self-creation. In D. Brown & Associate (Eds.), Career choice and development (4th ed., pp. 85–148). San Francisco, CA: Jossey-Bass)

**Dissertasiya işində apardığımız təhlil və araşdırmalar aşağıdakı ümumiləşdirmə və nəticələrin əldə edilməsinə zəmin yaratmışdır:**

1. Tədqiqatlar göstərir ki, müasir peşələrin sayının dinmaik dəyişdiyi bir zamanda peşəseçimi aktual və prioritet bir problem kimi dominantlıq təşkil edir.
2. Peşəseçiminin öyrənilməsinə həsr olunmuş tədqiqatlar daha çox peşəseçiminin strukturunun, başlıca komponentlərinin, o cümlədən cəmiyyətin inkişaf tendensiyasının bu prosesə təsirinin öyrənilməsinə həsr olunmuşdur.
3. Təhlillər göstərir ki, peşəseçimi müəyyən bir karyera üçün təhsil və təlim ilə bağlı seçimləri əhatə edə biləcək bir peşə yolunun seçilməsi prosesidir. Bu prosesin adekvat təşkilinin zəruriliyi insanın həyatda özünü tapması, özünü müəyyən bir peşəyə həsr etməsi, özünügerçəkləşdirməsi ilə də səciyyəvidir.
4. Aparılmış tədqiqatların təhlili göstərir ki, peşə seçiminin tədqiqində aparıcı istiqamət peşəseçiminin formalaşmasına təsir göstərən amillərin aşkar edilməsi və subyektiv faktların aşkarlanmasıdır.
5. Təhlillər göstərir ki, peşə seçimi konkret bir sahədə özünügerçəkləşdirmə, həyatın mənası və maraqların təşəkklülü ilə düz müntansibdir. Bunun üçün peşəyə hazırlığın əsas istiqamətləri aşakar olunmalı, peşəseçiminin daxili potensiala uyğunluğu müəyyən edilməlidir.
6. Müxtəlif istiqamətli tədqiqatlar peşə seçiminin formalaşamsına həsr olunmuş amilləri və mərhələləri geniş təsvir etsələr də,

peşə seçiminin genezisinə diqqət yetirmirlər. Belə vəziyyət peşə seçiminin təşəkkülünün psixopedaqoji mexanizmlərini ayırd etməyə imkan vermir.

7. Faktlar göstərir ki, cəmiyyətdə mövcud olan peşə illuziyaları şagirdlərin və tələbələrin şəxsiyyətinə və həyatının məzmununun fərqli şəkildə qavranılmasına hərtərəfli təsir göstərir.
8. Psixoloji ədəbiyyatın təhlili və aparılmış tədqiqatların xülasəsi göstərir ki, peşəseçimdə valideylərin yeniyetmə və gənclərə təsiri və ya onları istiqamətləndirməsi gəncin özünütapmasında problemlər yaradır. Çünki daxili potensialın uyğunluğunu yalnız gənc özü bilir və mühitdən həmin potensiala uyğun strukturları mənimsəyir.
9. Aparılmış tədqiqatların təhlilindən belə qənaətə gəlmək olur ki, peşə seçiminə şəxsiyyətin sosial özünütəyininin xüsusi halı kimi də yanaşılır və burada peşəseçimi sosial səciyyə daşıyır.
10. Faktlar göstərir ki, peşəseçiminə peşə haqqında cəmiyyətdə mövcud olan təsəvvürlər də ciddi təsir göstərir. Peşə haqqında ilkin təsəvvürlərin formalaşması peşəseçənin keyfiyyətlərini peşə seçimi amili kimi adekvat qiymətləndirmək qabiliyyətini özündə əks etdirir. Belə uyğunluluq peşə haqqında təsəvvürlərin peşə seçiminin konkretləşdirilməsində əhəmiyyətli rola malik olur.
11. Aparılmış tədqiqatlar göstərir ki, yeniyetmələrlə yuxarı sinif şagirdlərinin özünütəyini prosesinin müqayisəsi göstərir ki, yeniyetmələrdən fərqli olaraq yuxarı sinif şagirdlərinin psixoloji xüsusiyyətləri (zamanın xüsusi şəkildə hiss edilməsi, müstəqilliyin, iradənin, məqsədyönlülüyün formalaşması) ilə və sosial mühitin təsiri ilə (yeniyetmə hələ valideynlərindən asılıdır).
12. Aparılmış tədqiqatların nəticələri göstərir ki, tərbiyənin demokratik stili üstünlük təşkil edən ailələrdə valideynlər uşaqlarının peşə seçiminə güclü şəkildə təsir göstərirlər. Bu üslub tərbiyədə müstəqilliyə, məsuliyyətliliyə, aktivliyə geniş yer verir. Valideynlər tərəfindən yaradıcı keyfiyyətlərin inkişaf etdirilməsinə xüsusi diqqət ayrılır. Bu cür ailələrdə böyüyən uşaqlar peşə seçimində müstəqildirlər.

13. Yuxarı sinif şagirdlərində müəyyən bir fəaliyyətə maraq yaratmaq üçün onların diqqətlərini həmin fəaliyyət sahələrinə yönəltmək zəruridir. Bu isə öz növbəsində onlarda peşə maraqlarının və niyyətlərinin inkişafına səbəb olur.
14. Apardığımız tədqiqat göstərdi ki, peşə seçimi ilə bağlı daxili sosial motivlər və xarici müsbət motivlər bütün şagirdlərdə eyni fonda təzahür edir. Bu iki sferada oğlan və qız şagirdlərinin peşə seçimi motivləri tendensiya istiqamətli fərqlə özünü göstərir.
15. Peşə seçimi motivlərinin təhlili göstərir ki, daxili fərdi və xarici mənfi motivlərdə eləcə də, oğlan və qız şagirdlərində peşə seçimi zəminində daxili fərdi motiv və xarici mənfi motiv baxımdan ciddi fərq var və mövcud fərq statistik baxımdan mənalıdır. Eyni zamanda qeyd edilən hər iki motiv qızlarda oğlanlara nisbətən daha yüksəkdir.
16. Cinsi dəyişən meyarına görə peşə seçimi sferasında prioritetlərinin təhlili göstərir ki, qız və oğlanlar arasında peşə sferasında maraqlar fərqlidir.
17. Tədqiqat göstərdi ki, qruplar arasında peşə sferalarına maraq cins amilinə əsasən ciddi fərqlənir və mövcud fərqin statistik baxımdan mənalı olduğunu söyləmək olar.
18. Tədqiqatdan belə nəticəyə gəlmək olar ki, qruplar arası fərqin olmamasına baxmayaraq hər bir keyfiyyət üzrə ümum respondentlərin topladığı ümumi bal və ədədi orta bunu deməyə əsas verir ki, passivlik bir keyfiyyət kimi ən az müşahidə edilən bir şəxsi keyfiyyət olmuşdur. Məsuliyyətlilik ən çox üstünlük təşkil edən keyfiyyət olmuşdur.
19. Peşə sferalarına maraq ilə cins arasında ciddi əlaqə mövcuddur. Nəticələrin təhlili göstərir ki, cins dəyişəni ilə peşə sferalarına maraq dəyişəni arasında əlaqə statistik baxımdan mənalıdır. İki dəyişən arasında ciddi əlaqənin olduğunu və cins amilinin peşə meyllərinə təsirini olduğunu söyləməyə əsas verir.
20. Apardığımız tədqiqat göstərdi ki, peşə seçimində bu iki motiv qadınların seçiminə daha çox təsir edir və bu iki motivlə cins dəyişəni arasındakı əlaqə statistik baxımdan mənalıdır.

21. Peşəseçimi inkişafı inancların, dəyərlərin, münasibətlərin, bacarıqların, şəxsiyyətin və iş dünyası haqqında biliklərin inkişaf etdirilməsi üçün ömür boyu davam edən bir prosesdir. Bu nəzərə alınmalıdır.

***Dissertasiya işinin ümumi məzmununu, müdafiəyə çıxarılmış əsas müddəaları, habelə tədqiqat əsnasında əldə edilmiş nəticələri aşağıdakı məqalə və məruzələrdə əksini tapmışdır:***

1. Peşəseçmə ilə bağlı təsəvvürlər və onun şagird şəxsiyyətinin formalaşmasına təsiri // – Bakı: Bakı Qızlar Universiteti, Elmi Əsərlər. – 2017 . №4, – s.35-44
2. О мотивации старщеклассников в сфере профессиональной ориентации. Розвиток суспільних наук в сучасных умовак // – Kiev: Таврійський нацıональний унıверситет ıменı В.I. Вернадського Украина г. Киев 03035, – 2018. №1, – s.11-15
3. Yeniyetmələrdə peşəseçimi və özünütəyinin formalaşmasının psixoloji mexanizmləri. // – Bakı: Psixologiya jurnalı, – 2018. №4, – s.50-60
4. Peşəyönümünə yanaşmanın psixoloji təhlili // – Bakı: Sosial və Hümanitar elmlərin müasir problemləri – 2019. №24, – s.212-215
5. Peşəyönümü və onun tədqiqi istiqamətləri Professional orientation and directions of its research // – Кишинев: Балканско научно обозрение, – 2020. №3, – s.42-45
6. Peşəseçmə ilə bağlı təsəvürlərin formalaşması mərhələləri // – Bakı: Actual problems of psychology: new perspectives, conseredations, and thoughts: Konfras materialı, – 2021.– s.19-20
7. Рсихологические особенности формирования представлений о профессии у старщеклассников // – Калининград: Известия Балтийской государственной академии рыбопромыслового флота: психолого-педагогические науки, – 2022. №3, – s.125-133
8. Средства формирования профессиональных интересов у старщеклассников // – Казан, Сборник научных трудов, Konfras materialı – 2022, – s.113-117
9. Şagirdlərin peşə seçimində valideynlərin rolu // – Bakı: Azərbaycan Respublikası Təhsil İnstitutu, Elmi əsərlər, – 2023. №3, – s.226-231

Dissertasiyanın müdafiəsi 06 noyabr 2024-cü il tarixində saat $12^{00}$ - da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Dövlət Universiteti nəzdində fəaliyyət göstərən FD 2.43 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1148, Bakı şəhəri, Zahid Xəlilov küç. 33, BDU, 2-ci tədris binası, 203-cü otaq.

Dissertasiya ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Bakı Dövlət Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 04 oktyabr 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 24.09.24

Kağızın formatı: 60x84 1/16

Həcm: 34917 işarə

Tiraj: 100 nüsxə